

# Formula 1 çempionatı işgüzar əməkdaşlıq üçün əla platformadır

**Çağdaş dünya idmanında sürət rəmzi olan Formula -1 yarışlarının Bakıda keçirilməsi ölkəmizin böyük uğuru sayılır. Bu, bir həqiqətdir ki, son illər sürətlə inkişaf edən Azərbaycan və özündə sürət həyəcanı və qələbə iddiasını təcəssüm etdirən Formula-1 Avropa Qran-prisi bir-birini tamamlayır.**

Məlum olduğu kimi, Azərbaycan Qran-Prisi Bakı şəhər halqasında artıq beşinci dəfə keçirilir. Formula 1 çempionatının "Haas" komandasının rəhbəri Günter Ştaynerin fikrincə, Azərbaycan paytaxtı Formula 1 yarışları üçün əla ünvandır. G.Ştayner bu barədə fikirlərini davam etdirərək dedi:

-Bu, şəhər halqasıdır, lakin burada uzun məsafəli düz yol var və yürüş gözəl mənzərə fonunda keçir. Bu, Qran-pri bizim xoşumuza gəlir, onun özünəməxsus pozitiv ab-havası var. Şəxsən mən Bakıda olmağı sevirəm və ümidvaram ki, bu tras çempionatın təqvimində hələ uzun müddət qalacaq.

G.Staayner sonra qeyd etdi ki, Formula 1 çempionatı işgüzar əməkdaşlıq üçün əla qlobal platformadır. O dedi: "Haas" komandası sübut edib ki, o, yaxşı tərəfdaş ola bilər, biz bu çempionatda hələ uzun müddət olacağıq və indi bu komanda ilə işləməyin əsl zamanıdır".

Tanınmış idmançı komandasının Bakıdakı yarışda əldə edəcəyi nəticələrin Monte-Karloda əldə etdiyi nəticələrdən o qədər də fərqlənməyəcəyini bildirdi. Çünki yarışda dünyanın çox güclü komandaları iştirak edirlər və burada xüsusi fərqlənmək çox çətindir. Onun sözlərinə görə, bununla bərabər, komanda həmişəki kimi qarşıdakı yürüşə ciddi hazırlaşıb.

G.Stayer söhbətin sonunda bu sözləri əlavə etdi: "Bir daha qeyd etmək istəyirəm ki, hazırda Bakıda olmağımdam çox məmnunam. Həqiqətən, qədim və müasir şəhər olan Azərbaycan paytaxtı bu gün öz füsunkarlığı və təkrarsızlığı ilə hər kəsi heyran edir."

***Söhbəti yazdı:***
***M.HACIXANLI, "Xalq qəzeti"***



Xalq qəzeti 2021.- 4 iyun.- S.6.